# M.K.Atatürkün dünya və türk tarixindəki yerinə qısa bir nəzər

**Şahin Mustafayev**
*AMEA-nın Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik*

19 may 1919-cu il tarixi türk tarixinin ən şanlı günlərindən biri – Mustafa Kamal paşanın İstanbuldan Samsuna getdiyi və türk xalqının milli-azadlıq hərəkatına 1923-cü ildə tam qələbə qazanana qədər başçılıq etdiyi bir gündür. Bu gün Türkiyədə *Atatürkü anma, gənclik və idman bayramı* kimi hər il təntənəli şəkildə qeyd olunur.

Mustafa Kamal paşa bir millətin və dövlətin – Türkiyə Cümhuriyyətinin qurucusu və yaradıcısıdır. Və təsadüfi deyil ki, onun bu sahədə müstəsna xidmətlərini nəzərə alan və vurğulayan Türkiyə Böyük Millət Məclisi 1934-cü ildə ölkədə soyadlarının qəbul olunması haqqında qanuna uyğun olaraq Mustafa Kamal paşanı "Atatürk"(Türklərin atası) adına layiq görmüş və beləliklə, onun türk millətinin tarixindəki yerini bu şərəfli adla əbədiləşdirmişdir.

Ancaq Atatürk şəxsiyyətinin əzəməti sadəcə Türkiyə tarixi ilə məhdudlaşmır. Atatürk XX əsr dünya tarixinin yetişdirdiyi ən böyük siyasi, hərbi və dövlət xadimlərinin sırasında durur. Onun şəxsiyyəti haqqında dünyanın müxtəlif ölkələrində və çeşidli dillərdə yüzlərlə kitab yazılıb. Çünki tarixçilər, siyasətçilər və ümumiyyətlə insanlar Atatürk fenomenini anlamağa, onun dünya və türk tarixindəki yerini dərk etməyə həmişə, hələ onun həyatda olduğu vaxt maraq və səy göstəriblər. Və heç şübhəsiz, illər və yüzillər keçdikcə Atatürkün parlaq şəxsiyyəti bəşəriyyətin tarixi hafizəsində daha da dərin həkk olunacaq və o, hər zaman dünyanın ən uca mənəvi panteonunda digər tarixi qəhrəmanlar arasında özünə layiqli yer tutacaq.

Mövzunu daha aydın bir şəkildə açıqlamaq üçün Atatürkün öz dövründə və sonrakı illərdə müxtəlif ölkələrin tanınmış dövlət xadimləri tərəfindən necə dəyərləndirildiyinə dair bir sıra misallar və sitatlar gətirmək istərdim.

Məsələn, Amerikanın məşhur prezidenti Franklin Delano Ruzvelt deyirdi: "*Sovet Rusiyasının Xarici İşlər naziri Litvinovla görüş zamanı ondan Avropanın ən qiymətli və diqqətə dəyər dövlət xadiminin kim olduğunu soruşdum. O, cavabında dünyanın ən qiymətli və maraqlı lideri Türkiyə Respublikasının prezidenti Mustafa Kamal Atatürk olduğunu söylədi*".

I Dünya müharibəsi illərində Böyük Britaniyanın məşhur Baş naziri və son nəticədə Mustafa Kamal paşa ilə mübarizəni Lozannada uduzan Lloyd Corc Atatürk haqqında deyirdi: "*Böyük dühalar yüzildə bir dünyaya gəlir. Bizim bəxtsizliyimizdən dövrümüzün böyük dühasını türk milləti yetişdirdi*".

Və ya bu ölkənin digər məşhur baş naziri və eynilə I Dünya müharibəsi zamanı Mustafa Kamal paşaya Çanaqqala döyüşlərində məğlub olmuş Uinston Çörçil Atatürkün vəfatı ilə əlaqədar yazırdı: "*Müharibə zamanı Türkiyəni qurtaran və türk millətini dirçəldən Atatürkün ölümü yalnız onun ölkəsi üçün deyil, bütün Avropa üçün böyük itkidir*".

Qərb liderlərinin Atatürk haqqında dedikləri belə ifadələrin siyahısını xeyli artırmaq olar. Ancaq, Şərqin dövlət xadimləri və siyasi liderləri tərəfindən onun necə dəyərləndirilməsi, fikrimcə, daha maraqlı və önəmlidir. Çünki, əgər Atatürk çox vaxt birincilərin rəqibi olubsa, ikincilər üçün daha çox bir örnək və təqlid modeli rolunu oynayıb.



Belə ki, Atatürkün müasiri olan Əfqanıstanın şahı Əmənulla xan onun barəsində deyirdi: "*O, sadəcə Türkiyənin böyük dövlət xadimi deyildi, həm də Şərq xalqlarının böyük lideri idi*".

Hindistanın azadlığı uğrunda mətin mübariz və bu ölkənin ilk baş naziri Cəvahirləl Nehru Atatürk haqqında bu sözləri demişdir: "*Kamal Atatürk mənim gəncliyimin qəhrəmanı idi. Onun möhtəşəm islahatları haqqında oxuyanda xeyli təsirlənmişdim. Atatürkün Türkiyənin müasirləşdirilməsi istiqamətində göstərdiyi səylərini olduqca yüksək dəyərləndirirəm. Onun dinamizmi, qətiyyəti, yorulmazlığı insanlara güclü təsir göstərirdi. O, bütün Şərqdə yeni dövrün qurucularından biri idi. Mən bu gün də onun böyük pərəstişkarı olaraq qalıram*".

Və ya Pakistanın prezidenti Məhəmməd Əyyub Xan Atatürkü belə qiymətləndirirdi: "*Kamal Atatürk yalnız bu ölkənin (Türkiyənin) böyük öndəri deyil. Biz Pakistanda onu bütün zamanlarda yaşamış və ya indi də həyatda olan insanların arasında ən böyüklərindən biri kimi görürük. O, yalnız sizin ölkənin sevdiyi bir lider deyil. Dünyanın bütün müsəlmanları sevgi və pərəstiş hissi ilə nəzərlərini ona çeviriblər*".

Burada gətirilən misallar tanınmış dünya siyasətçiləri və dövlət adamları tərəfindən Atatürk haqqında söylənilən yüksək fikir və ifadələrin yalnız kiçik bir hissəsidir. Ancaq, düşünürəm ki, bu misallar da Mustafa Kamal paşa şəxsiyyətinin dünya tarixində nə dərəcədə uca yer tutduğunu vurğulamaq üçün kifayət edir. Xüsusilə, Şərq liderlərinin onun haqqında dedikləri sözlər onun dünya tarixindəki yerini dərk etmək üçün bir istiqamət göstəricisidir.

Həqiqətən, Atatürk nə üçün sadəcə öz dövründə və yalnız nisbətən geridə qalmış, lokal səviyyəli bir ölkənin lideri kimi deyil, dünya tarixinə təsir etmiş, xüsusilə, Şərq xalqlarının taleyində və ictimai fikrində dərin mənəvi iz buraxmış bir qəhrəman və siyasi xadim kimi qiymətləndirilir?

Təbii ki, bu barədə saatlarca fikir mübadiləsi aparmaq və danışmaq olar. Burada isə çox qısa şəkildə, tezisvari formada ümumi qənaətlərimi bölüşmək istərdim.

Əvvəla, Atatürkün anadan olduğu 1881-ci ilin dünya xəritəsinə diqqət yetirsək bugünkü reallıqlar baxımından qəribə bir mənzərə ilə rastlaşarıq. Məlumdur ki, bu dövr artıq kapitalizm sisteminin bütün dünyada hakim olduğu və artıq imperializm mərhələsinə keçidin baş verdiyi, dünya müstəmləkə sisteminin tam formalaşdığı və yetkinləşdiyi bir vaxt idi. Bu qlobal dəyişikliklərin nəticəsi o zamanın dünya xəritəsində də öz əksini tapır. Vaxtı ilə dünya tarixində çox



önəmli rol oynayan Şərqin əngin və möhtəşəm imperiyaları ya tamamilə xəritədən silinib, və ya son dövrlərini yaşayaraq, Avropa ölkələrinin yarım-müstəmləkələrinə çevrilmişdir.

Belə ki, XIX əsrin sonunda artıq yer üzündə əsas Qərb ölkələrinin nəzarətində olmayan "sahibsiz" ərazi qalmamışdır. Məsələn, Böyük Britaniya imperiyası dünyada 9 mln. kv. km ərazini müstəmləkə kimi zəbt edərək 147 mln əhaliyə nəzarət edirdi. Fransanın müstəmləkə imperiyasına 9,7 mln kv. km ərazi və 49 mln əhali daxil idi. Almaniyanın müstəmləkə imperiyası 2,9 mln kv. km ərazi və 12,3 mln əhalidən ibarət idi. Bunlarla yanaşı, Rusiya, ABŞ, Yaponiya, Belçika və digər ölkələri də sadalamaq olar. Asiya qitəsində yalnız bir neçə ölkə – Çin, Siam (Tailand), İran, Əfqanıstan və Osmanlı imperiyası formal olaraq siyasi müstəqilliyini qoruyub saxlasa da, iqtisadi cəhətdən tamamilə Avropanın imperialist ölkələrindən asılı vəziyyətdə idilər.

Təbii ki, minilliklər boyu bəşər tarixində aparıcı rol oynayan Şərq ölkələri və xalqları düşdükləri bu acınacaqlı vəziyyətə sonsuzadək dözə bilməzdilər. Böyük Fransız İnqilabının təsiri ilə XIX yüzillikdən etibarən Asiya qitəsində də sürətlə yayılan millətçilik ideologiyası, milli

kimlik anlayışı bu xalqların Qərbin müstəmləkə əsarətindən azad olma arzuları ilə birləşərək, Asiya ölkələrində geniş antikolonial hərəkatın başlanmasına və yayılmasına ciddi təkan vermişdir.

Artıq XX əsrin əvvəllərində Çin, Hindistan, İran, Osmanlı dövləti və digər ölkələrdə geniş milli-burjua hərəkatları və inqilablarının baş verdiyini görürük. Lakin əsas məsələ bundan ibarətdir ki, tarixi baxımdan bu inqilabların nəticələri və xalqların taleyindəki yeri eyni olmamışdır. Məsələn, 1911-ci il Çin inqilabı imperiyanın devrilməsi və respublikanın elanı ilə nəticələnsə də, Çin dövlətinin və Çində yaşayan bütün xalqların tam azadlığına gətirib çıxarmadı. Bir müddət sonra ölkədə Gomindan partiyasının avtokratik hakimiyyəti, daha sonra ölkənin böyük hissəsinin Yaponiya tərəfindən işğalı, son nəticədə isə Mao Tze Dunun başçılığı ilə Çin Xalq Respublikasının elanı və ölkədə Stalin tipli kommunist rejiminin qurulması baş verdi ki, bu rejimin xüsusilə keçən əsrin 50-60-cı illərində törətdiyi repressiyalar yaxın tarixdən məlumdur.

Və ya İranda 1905-1911-ci il Məşrutə inqilabı ölkədə konstitusiyalı monarxiya elan etsə də, sonuc olaraq Qacarlar sülaləsinin devrilməsi, Rza şah diktaturasının və repressiv Pəhləvi rejiminin bərqərar olması ilə nəticələndi. Şah hakimiyyəti dövründə İranda bütün demokratik qüvvələrin məhv edilməsi, insan hüquqlarının pozulması, böyük neft gəlirlərinin ölkəyə axmasına baxmayaraq, cəmiyyətdə sosial bərabərsizliyin artması son həddə çatmışdır. Pəhləviləri devirən İslam inqilabı da ölkənin problemlərini həll edə bilmədi, İranda şah rejiminin teokratik hakimiyyətlə əvəz olunması ilə nəticələndi.

Şərq ölkələrinin XX əsrdə müstəmləkəçiliyə qarşı mübarizə tarixindən belə misalların sayını artırmaq olar. Xüsusilə, son dövr Yaxın Şərq, Şimali Afrika, xüsusilə, ərəb dünyasında vəziyyətin nə dərəcədə mürəkkəb və problemli olduğu məlumdur – Misir, Yəmən, Suriya, İraq, Liviya və bir sıra digər ölkələr müstəmləkə əsarətindən azad olub müstəqil dövlətlər qursalar da, onların qəbul etdikləri inkişaf modelləri tərəqqi və çiçəklənmə ilə deyil, səfalət, daxili parçalanma və ictimai-siyasi böhranlarla müşayiət olunurdu.

Yuxarıda sadalananları nəzərə aldıqda qeyd etmək olar ki, Mustafa Kamal Atatürkün dünya və Şərq tarixindəki misilsiz yeri onun yalnız Türkiyənin milli-azadlıq hərəkatına başçılıq edərək bu hərəkatın qələbə ilə bitməsi və Türkiyə Cümhuriyyətinin qurulmasını təmin etməsilə məhdudlaşmır. Atatürk Avropa imperializminə və müstəmləkəçiliyinə qarşı mübarizə edən bütün dünya ölkələrinə, xüsusilə, Şərq xalqlarına, fikrimcə, ən uğurlu, özünü son yüz il ərzində tamamilə doğrultmuş müasirləşmə və inkişaf modellərindən birini nümayiş etdirməyə müvəffəq oldu.

Mustafa Kamal paşa millətinin və ölkəsinin azadlığı uğrunda apardığı mübarizənin böyük, ümumbəşəri və ümumşərq əhəmiyyətini dərk edərək, hələ 1922-ci il 7 iyul tarixli çıxışında belə deyirdi: "*Türkiyə bugünkü mücadiləsini yalnız özünün naminə aparsaydı, bəlkə, bu mücadilə daha az qanlı olar və daha tez bitərdi. Türkiyə böyük və mühüm bir mübarizə aparır. Çünki bu mübarizə bütün məzlum xalqların, bütün Şərqin mübarizəsidir. Və bu mübarizəni sona çatdırana qədər Türkiyə onunla birlikdə olan Şərq xalqlarıyla bərabər addımlayacağına əmindir*".

İki ildən sonra Türkiyə Cümhuriyyəti özünün 100 illiyini qeyd edəcək. Bu dövrdə bir çox Şərq ölkələrində – Çində, İranda, Misirdə, İraqda, hətta Rusiyada və ya keçmiş Sovet İttifaqında təqribən Türkiyə Cümhuriyyəti ilə eyni vaxtda qurulan dövlət sistemləri və rejimlərinin böyük hissəsi süquta uğramış, onlarda tətbiq olunan inkişaf modelləri çökmüşdür. Yuxarıda deyildiyi kimi, Çində Gomindan rejimi doqmatik sosialist sistemi ilə əvəz olunmuş, son onillərdə onun tədricən yenidən kapitalist sisteminə meyl etdiyi müşahidə olunur; Sovet İttifaqı dünya xəritəsindən yox olmuş; İranda şah hakimiyyəti teokratik iqtidar ilə əvəz olunmuş, Misirdə, İraqda, Liviyada kral rejimlərinin əvəzinə hərbi avtokratiyaya əsaslanan rejimlər yaranmış və s.

Atatürkün 1923-cü ildə qurduğu Türkiyə Cümhuriyyəti isə bu gün də uğurla öz inkişaf yolunu davam etdirməkdədir. Bu dövlət, Atatürkün həqiqətən siyasi dühası nəticəsində bütün ağır sınaqlardan çıxaraq, müvəffəqiyyətlə gələcəyə irəliləyir. Çünki o, sağlam təməl əsasında qurulub. Bu təməl Atatürkün təklif etdiyi bir neçə əsas prinsiplərdən ibarətdir: 1) Cümhuriyyətçilik (respublikaçılıq), 2) Xalqçılıq, 3) Dünyəvilik (laiklik), 4) Millətçilik (milli mədəniyyətə bağlılıq), 5) Dövlətçilik, 6) İnqilabçılıq (islahatçılıq).

Atatürkün əsasını qoyduğu bu prinsiplər Türkiyənin hüquqi, demokratik, sosial, dünyəvi və müasir bir ölkəyə çevrilməsini, burada hüququn üstünlüyünü, vətəndaşların siyasi və iqtisadi

azadlıqlarını, dinin dövlətdən ayrılması və dövlət işlərinə qarışmamasını, seçkili parlamentar sistemin bərqərar olmasını, Türkiyə Cümhuriyyətinin suverenliyi və milli maraqlarının göz bəbəyi kimi qorunmasını təmin etmiş, bunun sayəsində millətin hər zaman öz dövlətinə mənəvi bağlılığına, onun arxasında dağ kimi durmasına zəmin yaratmışdır.

Məhz bu səbəbdən, Atatürk fenomeni yalnız türk tarixi baxımından deyil, həm də ümumşərq və ümumbəşər tarixi baxımından həmişə diqqət mərkəzində olacaqdır. Türkiyənin bu möhtəşəm və uğurlu tarixi təcrübəsi və bu proseslərdə Mustafa Kamal Atatürkün yaradıcı və qurucu rolu hər zaman modernizasiya yolunda irəliləmək istəyən xalqların və onların siyasi elitasının diqqət mərkəzində olacaq, tədqiq ediləcək və öyrəniləcək.

Mustafa Kamal paşa ümumtürk tarixində də olduqca mühüm və mən deyərdim ki, müstəsna yerə sahibdir. Burada onun yalnız Türkiyə tarixində deyil, bütün türk dünyasının tarixindəki rolu nəzərdə tutulur.

Xatırlatmaq istərdim ki, bir zamanlar, VI əsrdə böyük Türk xaqanlığının dövründən XVI əsrə qədər 1000 illik tarix ərzində türk xalqları Çin səddindən Orta Avropa, Şimali Afrika və Aralıq dənizinə qədər geniş coğrafiyada yaşayaraq, bu ərazilərdə siyasi hakimiyyət qurmuş, burada möhtəşəm imperiyalar yaratmışdılar.

XIX yüzilliyin sonunda vəziyyətin nə qədər dramatik şəkildə dəyişdiyini və Atatürkün ümumtürk tarixindəki yerini bütün dolğunluğu ilə anlamaq üçün bir daha onun doğulduğu 1881-ci ilin dünya xəritəsinə, xüsusilə türk dünyasının xəritəsinə diqqət yetirmək kifayət edər. Ən şərqdən başlasaq görərik ki, onun anadan olmasından tam 4 il öncə, yəni 1877-ci ildə Yaqub bəyin başçılıq etdiyi və "Yeddi Şəhər" adlanan müstəqil Şərqi Türküstan türk-islam dövləti Çin ordusu tərəfindən işğal edilmişdir. Beləliklə, Şərqi Türküstan türkləri sonrakı illərdə də dəfələrlə öz müstəqilliklərini əldə etməyə cəhd göstərsələr də, Çinin hökmranlığı altında qaldılar.

Bu hadisədən bir il öncə, yəni 1876-cı ildə Rusiya imperiyası Qərbi Türküstanda, və ya Orta Asiyada ən qüdrətli türk-müsəlman dövləti olan Kokand xanlığının varlığına son qoyaraq, Orta Asiyaya sahib oldu, Buxara əmirliyi və Xivə xanlığını özünə tabe etdi.

Eyni 1877-ci ildə Rusiya imperiyası Osmanlı dövlətinə müharibə elan edərək, Balkan ərazilərinin böyük hissəsinin Osmanlının əlindən çıxmasına və buradakı türk-müsəlman əhalisinin kütləvi şəkildə köç etməsinə yol açdı. Rusiyanın hakim dairələri bu dövrdə özlərinin əsas məqsədlərinin İstanbulu və ya Konstantinopolu zəbt edib Osmanlı türk dövlətini tamamilə dünya xəritəsindən silmək olduğunu gizlətmirdilər.

I dünya müharibəsi Osmanlı dövləti üçün faciəli şəkildə başa çatdı. 1920-ci ildə Sevr müqaviləsi Anadoluda türk siyasi və etno-mədəni varlığına, demək olar ki, son qoymaq və Anadolu torpaqları üzərində Avropa dövlətlərinin hökmranlığını bərqərar etmək məqsədini güdürdü. Məhz bu təhlükə Anadolu türk xalqını Mustafa Kamal paşanın ətrafında sıx birləşərək öz qurtuluşu uğrunda ölüm-dirim mübarizəsində qəhrəmanlıqlar göstərməyə sövq etdi.

Nəticə etibarı ilə, XX əsr xəritəsinə diqqət yetirdikdə, yer üzündə yeganə müstəqil türk dövləti olaraq biz Atatürkün qurduğu Türkiyə Cümhuriyyətini görürük. Atatürkün siyasi dühası nəticəsində bu dövlətin istiqlalı yalnız Anadolu türk millətinin varlığı üçün deyil, həm də bütün digər türk xalqlarının, geniş türk dünyasının gələcəkdə azad olması və milli-siyasi hüquqlarını bərpa etməsi üçün həyati əhəmiyyət daşıyırdı. Atatürkün aşağıdakı məşhur sözləri onun siyasi uzaqgörənliyinin ifadəsidir: "*Bu gün Sovet Rusiyası dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir… Dövlət olaraq bu dostluğa ehtiyacımız var! Lakin sabah nə olacağını heç kim bilmir. Eynilə Osmanlı İmperiyası kimi, Avstriya-Macaristan imperiyası kimi o da parçalana bilər! Bu gün əlində tutduğu millətlər, ovuclarından çıxa bilər. Dünyada yeni bir tarazlıq yarana bilər. Məhz o zaman Türkiyə nə edəcəyini bilməlidir! Bizim bu dostumuzun idarəsində dili bir, inancı bir, kimliyi bir qardaşlarımız vardır. Onlara arxa durmağa hazır olmalıyıq!*".

Atatürkün bu mənalı sözlərinin, onun türk dünyasına verdiyi böyük önəmin mahiyyətini bütün türk xalqları öz yaxın tarixlərinin timsalında gördülər və bu gün də hiss etməkdədirlər. Türkiyə Cümhuriyyəti 1991-ci ildə müstəqilliklərini qazanmış Azərbaycanı və digər türk respublikalarını beynəlxalq aləmdə tanıyan və dərhal onlara yardım göstərməyə başlayan ilk dünya dövləti oldu. Biz isə Azərbaycanlılar olaraq Qarabağın azad olunmasında Ali Baş komandanın başçılığı ilə müzəffər ordumuzun və bütün xalqımızın şücaəti və fədakarlığı ilə birlikdə

Atatürkün yadigarı olan Türkiyə dövlətinin hər səviyyədə siyasi və mənəvi dəstəyinin nə qədər böyük önəm daşıdığını gözəl bilirik.

Məhz bu səbəbdən hər zaman Qarabağ şəhidlərimizin ruhuna rəhmət deyərkən həm də böyük Mustafa Kamal Atatürkün əziz xatirəsini bir daha anır və onun türk tarixindəki misilsiz rolunu və yerini dərk edirik.

**Ədəbiyyat:**

1. Mustafa Kemal Atatürk. Nutuk. Ankara: Kaynak Yayınları, 2015

2. Andrew Mango. Atatürk: The Biography of the Founder of Modern Turkey. New York: The Overlook Press, 1999

3. Harold C. Armstrong. Grey Wolf, Mustafa Kemal: An Intimate Study of a Dictator. New York: Penguin Books, 1937

4. Lord Kinross. Ataturk: The Rebirth of a Nation.London: Weidenfeld & Nicolson, 1964

5. Şevket Süreyya Aydemir. Tek adam. 1-3 Ciltler.İstanbul: Remzi Kitabevi, 1999

6. Vamik Volkan & Norman Itzkowitz. The Immortal Atatürk – The Psykhobiography. Chicago:University of Chicago Press, 1984

7. What they say for Atatürk. (https://www.ktb.gov.tr/EN-104196/quotations-about-ataturk.html)